**2024-cü ildə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bərpa və quruculuq işləri davam etdi, özü də daha sürətlə, daha həvəslə. "Yaşıl enerji" zonası elan olunmuş Qarabağ və Şərqi Zəngəzur genişmiqyaslı layihələrin icrası sayəsində ilbəil, aybaay deyil, günbəgün dəyişir, saatbasaat abadlaşır.**



# Qətiyyətli siyasi iradə və artan iqtisadi güc

## Böyük qayıdış bu iki amilin hesabına gerçəkləşir

Zəngilan, Füzuli, Laçın, Cəbrayıl, Xocalı yurd yerlərindən 30 il aralı düşmüş, köçkünlük həyatı yaşamış sakinlərini öz qoynuna alır. Buralar müasir tələblər çərçivəsində yenidən qurulur. Ağalı (Zəngilan), Talış (Tərtər), Zabux (Laçın) "ağıllı kənd" statusu ilə yeni dövrünə qədəm qoyur. Prezident İlham Əliyev 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bu sahədə əldə olunan uğurlardan söz açmışdır. İl ərzində görülən işləri xatırladan dövlət başçısı bəyan etmişdir ki, 2024-cü ildə qarşıya qoyulan bütün məsələlər öz həllini tapmışdır: "Bütövlükdə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, həm sosial obyektlərdə, inşaat işlərində. Gələn il təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır".

Dövlət başçısının, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə hər səfərləri burada gedən bərpa-quruculuq işlərinin sürətinə təkan verir. Bu baxımdan dövlət başçısının Qarabağ və Şərqi Zəngəzura ötənilki səfərləri də bir sıra vacib layihələrə start verilməsi, yaşayış məntəqələrinin, vacib infrastruktur obyektlərinin açılışları, təməlqoyma mərasimləri ilə yadda qaldı. Onun nəticəsidir ki, bu gün Qarabağ və Şərqi Zəngəzur təkcə dirçəliş, abadlıq və yenidənqurma ünvanı deyil, həm də "yaşıl enerji" regionudur. Bölgədə 4 min meqavatdan çox günəş, 500 meqavatadək külək enerjisi potensialı mövcuddur. Yalnız ötən il ərzində Qarabağ və Şərqi Zəngəzurda 32 su-elektrik stansiyasında 550 milyon kilovat-saatadək "yaşıl enerji" istehsal edilib, Prezidentin iştirakı ilə 7 su-elektrik stansiyasının açılışı olub, "Xudafərin" hidroqovşağı istismara verilib, "Qız qalası" hidroqovşağı açılıb. Ümumiyyətlə, həmin ərazilərdə 4 il ərzində 270 meqavat gücündə 32 su-elektrik stansiyası istismara verilib.

Qarabağ və Şərqi Zəngəzurda görülən işlərin bir hissəsini də nəqliyyat infrastrukturu layihələri təşkil edir. Prezident İlham Əliyev yanvarın 28-də keçirdiyi müşavirədə bu barədə demişdir: "Həmin ərazilərdə 3400 kilometrə yaxın avtomobil yolu - hələlik cəmi 44 avtomobil yolu layihəsi icra edilib, ya da ki, icra edilməkdədir. Eyni zamanda 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanmışdır. Horadiz-Ağbənd dəmir yolunun 60 faizi, Bərdə-Ağdam dəmir yolunun 94 faizi inşa edilib. Əgər biz bunları icra etməsəydik, bu gün həm Bakı şəhəri, həm digər şəhərlər, həm də ümumiyyətlə, ölkə şəhərləri arasındakı bağlantılar bizim nəqliyyat imkanlarımızı tamamilə iflic vəziyyətinə sala bilərdi".

Sitatın davamı olaraq qeyd edək ki, ötən il Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi istiqamətində görülən işlər davam etmişdir.

2024-cü ilin may ayı Şuşaya dönüş ili kimi yadda qaldı. Bu qayıdış Şuşanın ən yeni tarixinin başlanğıcıdır. Uzun illər ata-baba yurdlarından didərgin düşmüş şuşalılar yurdlarına qovuşdular. Mayın 9-da Şuşaya yollanan şuşalılarla bərabər, Laçın rayonunun Sus kəndinə də köç karvanı istiqamət götürmüşdü. İlk mərhələdə hər iki əraziyə hər biri 20 ailədən ibarət keçmiş məcburi köçkün döndü. Ertəsi gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edərək şəhərə ilk köçmüş sakinlərlə görüşdülər. Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verildi. Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Təməli 2021-ci il avqustun 29-da qoyulmuş yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Xalqımız ötən il daha bir əlamətdar hadisəyə şahidlik etdi - 2024-cü il mayın 28-də Böyük qayıdışın Xocalı səhifəsi yazıldı. O gün 26 fevral qətliamı ilə yaddaşımızda qalan Xocalıya dönüşün sevincini yaşadıq, kədəri qürur əvəz etdi. Birinci mərhələdə Xocalıya 20 ailə qayıtdı. Bu qayıdışın Müstəqillik Günündə baş tutması heç də təsadüfi deyildi. Xocalı sakinləri ilə görüşən Prezident İlham Əliyev qayıdışın məhz həmin gün həyata keçirilməsini belə izah etdi: "Keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur".

Sonrakı mərhələdə - dekabrın 13-də Xocalının Ballıca kəndinə 27 və dekabrın 27-də isə daha 21 ailə köçürüldü. Yaxın müddətdə Xankəndidən olan keçmiş məcburi köçkünlərin məskunlaşması prosesi də start götürəcək. Hazırda isə Xankəndidə 8 minə yaxın insan məskunlaşmışdır və bu say günü-gündən artmaqdadır.

Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan öz imkanları hesabına həyata keçirir. Yaxın üç ildə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. "Dünya tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb" söyləyən Prezident İlham Əliyevin fikirlərinə söykənərək qeyd edək ki, Böyük qayıdışla bağlı görülən nəhəng işlər qətiyyətli siyasi iradənin və Azərbaycanın artan iqtisadi gücünün göstəricisidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 4 fevral (№ 24).- S.15.